**Müəllim işləmək istəyənlərin nəzərinə: Yeni hazırlıq kursları fəaliyyətə başlayacaq!**

Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin təşkilatçılığı ilə mart ayının 10-dan etibarən müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün yeni hazırlıq kursu fəaliyyətə başlayacaqdır.

Aylıq ödənişi 70 manat olan hazırlıq kursu 2 sahə - kurikulum və pedaqogika istiqamətləri üzrə keçirilir.

İbtidai sinif müəllimləri üçün isə Azərbaycan dili, riyaziyyat, kurikulum və pedaqogika istiqamətləri üzrə hazırlıq kursunun aylıq ödəniş məbləği 120 manatdır. Test imtahanı proqramına uyğun olaraq təşkil edilən dərslər həftədə 2 dəfə keçiriləcəkdir.

Namizədlərin hazırlıq səviyyəsini müəyyən etmək üçün keçiriləcək sınaq imtahanlarında Mərkəzin təşkil etdiyi hazırlıq kursunun iştirakçıları güzəştli qiymətlərlə iştirak edəcəklər.

Təcrübəli müəllimlər tərəfindən keçiriləcək hazırlıq kursuna qəbul üçün qeydiyyat Dövlət İmtahan Mərkəzinin inzibati binasında aparılır.

**Ünvan: Naxçıvan şəhəri, C.Məmmədquluzadə küçəsi 23.**
**Əlavə məlumat üçün:**
**Tel: (036) 545-65-71**